BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№4 Humanitar elmlər seriyası 2015*

# METODİKA

**UOT 37:001.12/.18**

## ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ FƏRQLİ KURİKULUMLARIN YARADILMASININ ƏHƏMİYYƏTİ

**Ş.E.KAZIMOVA**
***Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu***
***shefa.kazimova@mail.ru***

*Azərbaycan Respublikası təhsil sahəsində tətbiq etdiyi islahatlarla dünya təhsil məkanına inteqrasiya etməkdədir. Tətbiq olunan kurikulumlar, onların nəzəri və praktik tərəfləri elm adamları tərəfindən dəqiqləşdirilmiş və təhsil sisteminə uyğunlaşdırılmışdır. Məqalədə təhsil sistemində tətbiq olunan kurikulumlar, xarici ölkələrdə geniş yayılmış təhsil modelləri tədqiqata cəlb olunmuşdur. Məktəblərdə fərqli kurikulumların tətbiq olunması araşdırılmış, onun əhəmiyyəti üzə çıxarılmışdır. Məqalədə eyni zamanda təhsil sahəsində xarici ölkələrin təcrübələrinə də nəzər salınmışdır.*

**Açar sözlər:** təhsil, ibtidai təhsil, kurikulum, model, təhsil modeli

Təhsilin qlobal anlayış olmasıyla yanaşı, onun harada yaranması, ilkin mövcudluğu müxtəlif tədqiqatçıların diqqət mərkəzində olmuş və bu məsələyə müxtəlif aspektlərdən fərqli yanaşmalar özünü büruzə vermişdir. Bildiyimiz kimi təhsilin ən qədim mövcudluq və sistemli inkişafı antik dövrə, qədim şərq mədəniyyətinin çiçəklənməsi dövrünə təsadüf edir. Müxtəlif tarixi mənbələr, tədqiqatçıların əsərləri, daş kitabələr, qazıntılar nəticəsində aşkara çıxarılmış maddi və mənəvi mədəniyyət nümunələri, memarlıq abidələri təhsilin tarixi haqqında fikir yürütməyimizə imkan verir.

Hazırda dünya təhsil sistemində tətbiq olunan təhsil modellərinin də özünəməxsus tarixi vardır. Hələ XII əsrdə şərq alimlərinin əsərlərində izlərinə rast gəldiyimiz sinif-dərs sistemi XVII əsrdə Y.A.Komenski (1592-1670) və V.Ratke (1571-1635) tərəfindən işlənilərək xüsusi qəlibə salınmışdır.

Sinif-dərs sisteminin inkişafı özünün sonrakı mərhələsində müxtəlif dəyişikliklərə uğramış, yeni forma və məzmunda tətbiq olunmağa davam etmişdir. Baxmayaraq ki, müasir dövrdə dərslərin tədris olunmasında mərkəzdənqaçma meylləri müşahidə olunur (yəni müxtəlif ölkələrdə sinif sisteminə

üstünlük verilməsi öz yerini sərbəst dərslərə verməkdədir, distant tədris forması sürətlə inkişaf edir və s.), yenə də əsas diqqət sistemliliyin gözlənilməsinə yönəldilir.

İbtidai təhsil üzrə inteqrativ kurikulumun yaradılmasının əhəmiyyəti nədən ibarətdir? Biz tədqiqat apararkən hər şeydən öncə kurikulumlar və onların növlərini araşdırmalıyıq.

Kurikulum modellərindən danışarkən model anlayışının özünə aydınlıq gətirmək lazım gəlir. Model – təhsil prosesinin səmərəliliyini təşkil etmək üçün həyata keçirilən fəaliyyət nümunəsidir. Hər bir ölkənin özünəməxsus fəaliyyət nümunələri vardır. Bu, istər iqtisadiyyatda, istər sənayedə, istər siyasətdə, istərsə də təhsildə özünü təsdiqləmiş bir fəaliyyətdir.

Təhsil özü də çoxşaxəli bir proses kimi müxtəlif modellərə malikdir (1). Model dedikdə, hər hansı bir problemi həll etmək üçün təklif və ya təkliflər, xüsusi problemi həll etmək üçün cəhd, eləcə də artıq mövcud olan keyfiyyətli bir modelin təkrarı və ya yeni bir model yaratmaq başa düşülə bilər. Təbii ki, mövcud situasiyanın düzgün analizi tədris prosesinin iştirakçısına səmərəli modeli seçmək və ya yeni bir model yaratmaq üçün əhəmiyyətli kömək edə bilər.

Fərqli təhsil modellərindən istifadə etməklə pedaqoji prosesdə daha çox səmərəlilik və məhsuldarlıq əldə etmək olar. Əlverişli modelin istifadəsi təhsilin keyfiyyətini də artırmağa və daha yüksək nəticələr əldə etməyə kömək edir. Bundan başqa, ənənəvi modellərdən fərqlənən bir modelin tətbiqi müəllimi öyrənmə və yenilənmə prosesinə sövq edir.

Dünya təcrübəsində geniş istifadəsi ilə seçilən bir neçə kurikulum modelləri məlumdur. Kurikulum modelləri arasında məşhur və çox istifadə olunan modellərdən biri 1940-cı ildə amerikalı alim Ralph Tayler tərəfindən yaradılan və onun adını daşıyan Tayler modelidir. Amerikada bütün müəllimlər tədrisin inkişafı üçün Tayler modelindən və onun müxtəlif versiyalarından bu və ya digər şəkildə istifadə edir. Tayler öz tələbələrini istiqamətləndirmək üçün "Kurikulumun əsas prinsipləri" adlı kitab yazdı və bu kitabda model yaratmaq üçün ideyalarını verdi. Tayler modelində əsas xüsusiyyət tədrisin mərhələli və planlaşdırılmış şəkildə verilməsidir. Yüksək keyfiyyəti və asanlıq dərəcəsi ilə seçilən bu model dörd mərhələdən ibarətdir:

1. məktəbin məqsədlərinin müəyyənləşdirilməsi;
2. məqsədlərlə əlaqəli təhsil təcrübələrinin müəyyənləşdirilməsi;
3. yeni təcrübələrin təşkil olunması;
4. məqsədlərin qiymətləndirilməsi (3).

R.Tayler kurikulum modeli hazırlayarkən ictimai və sosial cəhətdən təhsili inkişaf etdirə biləcək bütün tərəfləri diqqət mərkəzində saxlamışdır. Burada həm təhsilalanların, həm təhsilverənlərin, həm cəmiyyətin ilkin ümumi məqsədləri və istəkləri nəzərə alınmış, həm də təhsilin fəlsəfi, pedaqoji, psixoloji, didaktik nəzəri və praktik tərəfləri nəzərə alınmaqla dəqiq təlim məqsədləri müəyyənləşdirilmişdir.

Estoniyalı alim Hilda Taba da kurikulum modelinin (1962) yaradıcılarındandır. Hilda Tabaya görə məzmun standartlarının yaranması və tətbiqindən sonra şagirdlərin nailiyyətlərinin qiymətləndirilməsi üçün proses olmalıdır. Taba modelinə görə uğurlu bir kurikulumun inkişafı üçün yeddi mərhələ (addım) mövcuddur:

1) tələbələrin ehtiyaclarının diaqnozlaşdırılması;
2) müəllimin təlim məqsədlərini müəyyənləşdirməsi;
3) məqsəd və məzmunun uyğunluğu;
4) təlimin məzmununun öyrənənlərin maraq və nailiyyət səviyyəsinə görə sıralanması;
5) tədris üsullarının öyrənənlərin məşğulluğunu təmin etməsi;
6) təlim fəaliyyətlərinin təşkil olunması;
7) qiymətləndirmə prosesinə şagird və müəllimlərin cəlb olunması (9).

Tabaya görə təlim məqsədlərinin 3 növü vardır: biliklər – şagirdlər nələri bilməlidir (anlamalıdır), bacarıqlar – şagirdlər necə öyrənməlidirlər, konsepsiyalar – şagirdlərə öyrədilməsi vacib olanlar.

Taba modeli də qərb ölkələrinin təcrübəsində geniş istifadə olunmaqdadır. Bu modelin çətin cəhəti ondan ibarətdir ki, bu model daha çox istedadlı uşaqlara hesablanmışdır.

Cerald Veynşteyn və Mariyo Fantini 1970-ci ildə yeni tədris modeli yaratdılar. Alimlər yaratdıqları kurikulum modelini “təsir kurikulumu” adlandırırdılar. Başqa tədqiqatçılar tərəfindən isə bu model humanist model adlandırılır.

Amerika məktəblərinin və təhsilalanların ehtiyaclarını dəyərləndirən Eysner beşölçülü kurikulum modeli təklif etdi. O, kurikulum modelində aşağıdakı yanaşmaların olmasını vacib sayırdı: a) məqsədli, b) struktur, c) tədris, ç) pedaqoji və d) qiymətləndirici.

Tədqiqatçı alim bu fikirlərini müdafiə edərək bildiridi ki, əgər qeyd edilən tərəflərdən biri kurikulumda mövcud olmazsa, pedaqoji proses öz əhəmiyyətini itirə bilər. Bundan başqa, alimin qeyd etdiyi xüsusiyyətlərin hər biri də öz aralarında bir-biri ilə əlaqəlidir.

**E.Eysnerin estetik kurikulum modeli**



Sxemdən də göründüyü kimi Eysnerin təklif etdiyi modelin tərəfləri bir-biri ilə qarşılıqlı əlaqədədirlər və onlar tədris prosesinin konseptuallığını təmin edirlər.

Azərbaycanda mövcud olan kurikulum Taylerin deduktiv metodu ilə Eysnerin estetik metodunun qarışığıdır. Çünki əvvəlcədən ən ümumi tədris məqsədləri müəyyən olunur, daha sonra həmin məqsədlərin alt məqsədləri ayrılır və müxtəlif yanaşamalarla təlim məqsədlərinə nail olunur. Bu zaman Eysnerin qeyd etdiyi kimi həm məqsədli, həm struktur, həm tədris, həm pedaqoji və həm də qiymətləndirici yanaşma vasitəsi ilə təlim məqsədlərinin reallaşdırılmasına və təlimdə səmərəli nəticələr əldə olunmasına çalışılır.

Kurikulumun modelləri ilə yanaşı, növləri də həmişə tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Dünya təcrübəsində təhsil proqramlarının müxtəlif növləri mövcuddur. Bəzi ölkələr kurikulumların yalnız bir növündən istifadə edirsə, bəziləri iki və daha çox növdən ya ayrı-ayrılıqda, ya da inteqrasiya olunmuş şəkildə istifadə edirlər.

İnkişaf etmiş ölkələrin əksəriyyətində müəllimlərə kurikulumları seçməkdə sərbəstlik verilmişdir. Çünki daxil olduğu sinfin bütün xüsusiyyətlərini yalnız o sinfə dərs deyən müəllim bilir. Bundan başqa hər bir müəllimin özünəməxsus strateji hədəfləri və tədris xüsusiyyətləri olur ki, bəzən seçilmiş tədris proqramı həmin xüsusiyyətlərlə uyğunlaşmır. Nəticədə tədrisin keyfiyyəti və səmərəlilik səviyyəsi arzuolunan səviyyədə olmur. Sərbəst kurikulum seçən müəllim sinfinin kapitanı olmağı bacarır və idarəetməni daha yaxşı həyata keçirə bilir.

Tədqiqatlar göstərir ki, kurikulumların müxtəlif növləri mövcuddur.

Bir qrup tədqiqatçılar (Bilbao P.P., Lusido P.İ. və b.) (2008), eləcə də onlardan bir müddət sonra Allan Qrason kurikulumun 7 növünün təsnifatını vermişlər (4):

1. Tövsiyə edilən kurikulum;
2. Yazılı kurikulum;
3. Tədris kurikulumu;
4. Dəstəkləyici kurikulum;
5. Qiymətləndirilən kurikulum;
6. Öyrənilmiş kurikulum;
7. Gizli kurikulum.

Yuxarıda göstərilən kurikulumların hər birinin özünəməxsus cəhətləri vardır və təhsil sistemində onlar bu ya digər dərəcədə istifadə olunur. Bəzən rəsmi sənədlərdə adı qeyd edilməsə də, müəllimlər bu kurikulum növlərindən yeri gəldikcə öz dərslərində istifadə edirlər (2).

Azərbaycanın təhsil sistemində yuxarıda qeyd olunan kurikulum növlərinin demək olar ki, hamısından istifadə edilir. Müəllimlər tədris prosesi zamanı müxtəlif vasitələrdən istifadə edirlər ki, bunlar da elm sahəsində adlandırıldığı kimi kurikulumların müxtəlif növləridir.

Fərqli kurikulumlardan istifadənin əhəmiyyəti isə çox böyükdür. İbtidai

təhsil mühiti və onun rəngarəngliyi müəllimdən tələb edir ki, o öz dərsində fərqli kurikulumlardan istifadə etsin.

Bildiyimiz kimi, Azərbaycan təhsil sistemi əsaslı islahatlardan keçərək hazırkı formaya gəlib çatmışdır. İslahatlar isə hələ də davam edir. Hazırda respublikada olan məktəbləri 3 növə bölmək olar:

- maddi-texniki baza, eləcə də kadr təminatı cəhətdən tam təmin olunmuş yüksək səviyyəli məktəblər;
- maddi-texniki baza və kadr cəhətdən müəyyən çatışmazlıqları olan, lakin tədrisdə tapşırıqları yerinə yetirə bilən orta səviyyəli məktəblər (əksər şəhər və rayon mərkəzlərində yerləşən məktəblər);
- maddi-texniki baza və kadr təminatı cəhətdən ciddi nöqsanları olan tədrisdə nəticələr əldə edə bilməyən zəif məktəblər (ucqar kənd məktəbləri).

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra təhsildə köklü dəyişikliklər baş vermişdir. 2003-cü ildə Ulu öndər Heydər Əliyevin sərəncamına əsasən, 17 fevral 2003-cü il tarixli, 1147 nömrəli, "Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, mövcud məktəblərin əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqram (2003-2007-ci illər)" təsdiq edilmişdir. Bu proqram çərçivəsində Azərbaycanda bir çox məktəblər əsaslı təmir olunmuş, yeni məktəblər tikilmiş və mövcud məktəblər maddi-texniki avadanlıqlarla təchiz olunmuşdur. Lakin bütün bunlarla yanaşı, proqramdan kənarda qalan bəzi məktəblər vardır ki, onlar maddi-texniki baza cəhətdən çox kasıbdırlar. Bundan başqa kadr çatışmazlığı, mövcud kadrların peşəkarlığını yüksəltməməsi tələb edir ki, məktəblərdə fərqli kurikulumlardan istifadə olunsun.

"Ümumi təhsilin dövlət standartları və proqramları (kurikulumları)" sənədində nəzərdə tutulan təlim nəticələrinin əksəriyyəti ucqar məktəblərdə reallaşa bilmir. Lakin fərli kurikulumlardan istifadə həmin məktəbləri də təhsil nəticələri verməyə sövq edə bilər.

Fərqli kurikulum modellərindən və növlərindən istifadə olunması real situasiyaya görə dəyərləndirilməlidir. Respublikada tətbiq olunan kurikulumla yanaşı digər bir kurikulum da hazırlanmalıdır. Bəzi ölkələrdə bu təcrübədən istifadə olunmaqdadır. Yanaşı kurikulumun mahiyyəti ondan ibarətdir ki, burada tələb olunan təlim nəticələri nisbətən sadə formada verilir. Xarici ölkə təcrübəsində (Amerika Birləşmiş Ştatları, Almaniya və s.) müəllimlər adətən, öz yaşadıqları regiona uyğun kurikulum tərtib edirlər. Təbii ki, bu yanaşma ilkin halında variasiyalaşmaya yol açsa da, təhsil nəticələrinin hər kəs üçün əlçatanlığını təmin edir.

Məktəblərin kadr xüsusiyyətləri və maddi-texniki bazası da bu məsələdə önəmli rola malikdir. Məsələn, musiqini tədris edən müəllim əgər özü musiqiçi deyilsə (əksər məktəblərdə bu problem mövcuddur), onun hazırkı musiqi standartlarını şagirdlərə reallaşdırması mümkün deyil və ya qismən mümkündür. Eləcə də, təsviri incəsənət, informatika, fiziki tərbiyə və s. kimi fənnlər ixtisaslaşmış kadr olmadan səmərəli şəkildə həyata keçirilə bilmir.

Təhsilin 12 illik olması ilə əlaqədar hazırda respublikada müxtəlif qabaqcıl layihələr və pedaqoji kadrların peşəkarlığının yüksəldilməsi üzrə işlər aparılmaqdadır. Aparılan işlər nəticəsində təhsilin səviyyəsi yüksəlsə də, ümumilikdə təhsil sistemində kurikulumların tətbiqi və kadr potensialı cəhətdən nöqsanlar mövcuddur.

**ƏDƏBİYYAT**


1. Kərimov Y.Ş. Seçilmiş əsərləri. İbtidai təhsilin nəzəri problemləri. II c. Bakı: Pedaqogika, 2007, 431 s.
2. Piriyeva R. Təhsildə inteqrasiya. “Şərq qapısı” qəz., 2014, 28 avqust
3. https://educationalresearchtechniques.wordpress.com/2014/07/01/curriculum-development-the-tyler-model/
4. http://simplyeducate.me/2015/01/07/seven-school-curriculum-types-and-their-classroom-implications/


## ЗНАЧИМОСТЬ СОЗДАНИЯ РАЗЛИЧНЫХ УЧЕБНЫХ ПРОГРАММ В ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛАХ


**Ш.Э.КАЗИМОВА**


**РЕЗЮМЕ**


Основной реформой в сфере образования Азербайджанской Республики соответственно мировым стандартам является интеграция в мировое образовательное пространство. Прикладные программы, их теоретические и практические аспекты системы образования выявлены и установлены учеными. Также в исследовании были использованы модели учебных планов в системе образования зарубежных стран. Реализация исследования в школах различных учебных программ показали свою практическую значимость. В статье также подчеркивается опыт зарубежных стран в области образования.



**Ключевые слова:** образование, начальное образование, учебный план, модель, модель образования


## THE IMPORTANCE OF CREATING A VARIETY OF TRAINING PROGRAMS IN COMPREHENSIVE SCHOOLS


**Sh.E.KAZIMOVA**


**SUMMARY**


A basic reform in education in the Republic of Azerbaijan that accords with world standards is the integration into the world educational space. Applied programs and their theoretical and practical aspects in the education system have been identified and established by scientists. The research refers to the curricula of different foreign countries. The study of different educational programs showed its practical significance. The article also highlights the experience of foreign countries in the field of education.



**Key words:** education, primary education, curriculum, model, model of education